**UOT:94(479.24)**

# XOCALI SOYQIRIMI DÜNYANIN GÖZÜ İLƏ

***Qasımova Arifə Akif qızı***
***Gəncə Dövlət Universiteti***
***Afet.mammadova@list.ru***

**Xülasə:** *Məqalədə Xocalı faciəsinə dünya xalqlarının gözü ilə diqqət yetirilmiş, ciddi təhlil aparılmışdır. Qeyd edilmişdir ki, faciə mənfur erməni qüvvələrinin məkrli siyasətinin növbəti addımı idi. Təəssüflər olsun ki, həmin dövrdə Ermənistana tutarlı cavab verilmədi. Ancaq, artıq dövlətimiz Xocalı şəhərini geri almış və qisas alın-mışdır. Məhz, bununla Xocalı faciəsinə fərqli münasibətə son qoyulmuşdur.*

**Açar sözlər:** Müharibə, Faciə, Şəhər, Məscid, Qaçqın
**Ключевые слово:** Война, Трагедия, Город, Мечеть, Беженец
**Key words:** War, Tragedy, City, Mosque, Refugee

Döyüş vəziyyətində olan Dağlıq Qarabağ anklavının şərqində yerləşən bu şəhərin baş məscidinin xidmətçiiləri dedilər ki, bu gün onlar ermənilərin çərşənbə günü işğal etdiyi anklavda yerləşən Azərbaycan şəhərindən gətirilmiş 17 nəfəri dəfn ediblər. Anklavın paytaxtı Stepanakertin şimal-qərbində yerləşən və 6.000 nəfər əhalisi olan Xocalı şəhərindən olan qaçqınlar hücum zamanı qadın və uşaq-lar daxil olmaqla 500 nəfərin öldürüldüyünü dedilər. Ağdam məscidinin direktoru Səid Sadıqov bildirdi ki, Xocalı şəhərindən olan qaçqınlar çərşənbə günündən bəri onun məscidinə 477 meyit gətiriblər.Bakı rəsmiləri Xocalıda 100 nəfərin öldürüldüyünü iddia edir, erməni rəsmiləri isə öz paytaxtları İrəvandan bildirirlər ki, cəmi 2 azərbaycanlı qətlə yetirilib (1).

Bakı rəsmisi bildirdi ki, onun hökuməti ölülərin dəqiq sayını bilən zaman azərbaycanlıların qəzəblənəcəyindən narahatdır. Bugün burada gördüyümüz 7 cənazədən ikisi uşaq, üçü qadın idi. Ağdam xəstəxanasında müalicə olunan digər 120 qaçqın ağır yaralardan əziyyət çəkir. Raziyə Aslanova Ağdama çərşənbə günü gecə çatıb. O, dedi ki, çərşənbə axşamı gecə Xocalıya hücuma keçən ermənilər dayan-madan atırdılar. Onun əri və kürəkəni öldürülmüş, qızı itkin düşmüşdür.Dağlıq Qarabağdan bura qaçıb gələn qaçqınlar arasında keçmiş Sovet Daxili Qoşunlarında xidmət edən iki türkmən əsgəri var idi. Onlar ötən cümə hərbi hissələrini tərk etmiş və Xocalıda sığınacaq tapmışlar. Əsgərlər dedi ki, erməni çavuşları onları "müsəlman olduqları üçün" döyürdülər.Fərarilər bildirdi ki, onların keçmiş hərbi hissəsi 366-cı alay Xocalını işğal edən erməni hərbçilərini dəstəkləyirdi. Onlar bildirdi ki, qadın və uşaqlara qaçmağa kömək edirdilər. Əsgərlərdən biri Ağaməhmət Mütif dedi: “Biz dağlardan keçərək bir qrup gətirirdik. Bu zaman ermənilər bizi gördü və atəş açmağa başladılar. On iki nəfər öldürüldü” (9).

Ağdamdakı RÖYTER müxbiri Elif Kaban məlumat vermişdir ki, çərşənbə qırğınından sonra azərilər onlarla insan dəfn edirdilər, hansılar ki, bu bölgənin ikinci böyük yaşayış mərkəzi olan Xocalı şəhərinin ermənilər tərəfindən işğalı zaımını öldürülmüşdü. Dəfndə iştirak edənlərdən biri jurnalistlərin üstünə qış-qıraraq demişdir: “Dünya burada baş verənlərə göz yumur. Biz ölürük, siz isə ba-xırsız” (3).

Sağ qalanların sözlərinə görə, erməni əsgərləri 450-dən çox azərbaycanlıya atəş açmış və süngüdən keçirmişlər. Onların çoxu uşaq və qadınlar idi. Yüzlərlə, bəlkədə minlərlə insan itkin düşmüş və ölmüşdür.İşğalçılar qadın və uşaqları mü-dafiə edən əsgərləri və könüllüləri öldürmüşlər. Sonra onlar qorxudan əsən qaçqınlara atəş açmağa başlayıblar. Sağ qalanlardan bir neçəsi baş verənləri belə təsvir etdi: "Elə əsl qırğın belə başladı. Ermənilər dayanmadan atırdılar. Sonra onlar içəri daxil oldu, bıçaq və süngü ilə adamları dorğamağa başladılar". Bu, sağ qalan üç əsgərdən biri olan Azər Hacıyevin dedikləri idi. Raziyə Aslanova Ağdama başqa qadınlar və uşaqlarla erməni meşələrindən keçərək gəlmişdir. O, ermənilərin dayanmadan

atdığını bildirdi, əri və kürəkəninin gözləri qarşısında öldürüldüyünü dedi. Qızı isə hələ də tapılmayıb.Ağdama gələn oğlanlardan biri qulağını itirmişdi.

Sağ qalanların dediyinə görə daha 2000 adam, hansılar ki, ayrı qaçmışdı, hələ də tapılmayıb: bəlkə də onların çoxu soyuqdan yaxud da aldıqları yaralardan ölüblər.

Dünən gecə Ağdam meyitxanasına 479 meyit gətirildi və qəbiristanlıqda 29 nəfər dəfn olundu. Mənim gördüyüm və hələ dəfn olunmamış 7 cənazənin 2-si uşaq, 3-ü isə qadın idi. Onlardan birinin sinəsi aldığı güllə yarasından tamamilə dağılmışdı. Ağdam xəstəxanası qan və terror səhnəsinə çevrilmişdi. Həkimlər bildirdi ki, soyqırımdan qaçan 140 xəstə dərin güllə yaralarından əziyyət çəkir. Ancaq onlar Ağdamda da təhlükəsiz deyildilər. Cümə günü gecə 150 min əhalisi olan şəhərin üzərinə raketlərdən zərbələr endirildi. Bir neçə bina dağıdıldı və bir nəfər öldü (7).

Anatol Liven erməni qoşunları tərəfindən həyata keçirilən kütləvi insan qırğını barədə məlumat toplayan zaman atəşə tutulub. Biz Dağlıq Qarabağın qarla örtülmüş dağlarından aşağı düşərkən səpələnmiş meyitləri gördük. Görünür, qaçqınlar qaçarkən onlara atəş açmışdılar. Bu hadisədən sonra jurnalistlər azərbaycanlı operator tərəfindən çəkilmiş kadrlara baxdılar. Kadrlarda bizim keçdiyimiz həmin dağların müxtəlif hissələrində onlarla insan cənazələri əks etdirilirdi. Azərbaycanlılar iddia edir ki, keçən həftə ermənilər tərəfindən işğal olunan Xocalı şəhərindən qaçan azərbaycanlıların kütləvi qırğını zamanı ən azı 1000 nəfər öldürülüb. Daha 4000-nəfər yaralanmış, donub ölmüş, yaxud itgin düşmüşdür.Mülki vertolyot dağlara enməli və kütləvi qırğınların törədildiyi yerlərdən meyitləri yığmalı idi. Mülki vertolyot 4 meyit yığdı. Həmin vaxt azərbaycanlı operatorun çəkdiyi filmdə isə həmin təpələrdə onlarla meyit göstərilirdi. Ağdama qayıdan zaman mülki vertolyotun yığdığı cənazələrə baxdıq. İki nəfər yaşlı kişi və kiçik bir qız qanına qəltan edilmiş, onların əlləri və ayaqları donmuşdu (8).

Ağdam, Azərbaycan, 2 Mart (Röyters) - Azərbaycanın ermənilərin üstünlük təşkil etdiyi Dağlıq Qarabağ bölgəsində erməni hərbçilərinin mülkü vətəndaşlara qarşı törətdiyi soyqırım haqqında bu gün yeni bir sübut əldə olunmuşdur.

Vertalyotla bölgəyə gedən Azərbaycan jurnalistləri və rəsmiləri qayıdan zaman özləri ilə üç uşaq meyiti gətirmişlər. Onların başlarının arxa hissəsi tamamilə dağıdılmışdı. Onlar dedi ki, ermənilərin atəş açması onlara meyitləri yığmağa imkan vermədi (6).

Hadisə yerində çəkilmiş şəkil dağlardan çoxlu sayda insan meyitlərinin yı-ğılmasını təsdiq edir. Müxbir xəbər verir ki, operator və Qərbdən olan jurnalistlər ermənilərin qırdığı yüzdən çox kişi, qadın və uşaq meyitlərini görüblər. Onlar 1 metrdən də az məsafədən başlarından vurulmuşdu. Şəkildə həmçinin təxminən 10 nəfərin, bunlar əsasən qadınlar və uşaqlar idi, başından güllə ilə öldürüldüyü göstərilir. Azərbaycan iddia edir ki, erməni qüvvələri mindən çox mülki insanı qətlə yetiriblər.

Ötən həftə Azərbaycan yenidən qəbirstanlığa dönmüşdü: matəm içində olan qaçqınlar və onlarla insan meyiti məscidin arxasında müvəqqəti meyitxana yaratmışdı. Onlar fevralın 25-i və 26-sı ermənilər tərəfindən darmadağın edilmiş Xocalıdan olan sadə Azəri kişi, qadın və uşaqları idi. Onların çoxu qaçan zaman yaxın məsafədən vurulmuşdu, bəzilərinin üzləri dağıdılmış, başlarının dərisi soyulmuş- du (2).

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Dağlıq Qarabağın azərbaycan-lılar məskunlaşan Xocalı şəhəri ermənilər tərəfindən kütləvi hücuma məruz qaldı. Rusların 366-cı motoatıcı alayı hücumda iştirak etdi. Nəticədə 613 nəfər öldürüldü, 487-i nəfər yaralandı, 1275 nəfər əsir götürüldü, 150 nəfər itgin düşdü. Xocalı ha-disələri münaqişənin xarakterini kökündən dəyişdi (4).

1991-ci ilin payızından Xocalı erməni silahlı qüvvələri tərəfindən blokadaya alınmışdı və daxili qoşunların Dağlıq Qarabağdan çıxarılmasından sonra Xocalı tam blokada vəziyyətinə düşdü. 1992-ci ilin yanvarından başlayaraq Xocalıya verilən elektrik enerjisi kəsildi. Sakinlərin bir hissəsi təcrid olunmuş şəhəri tərk etdi. Xocalı şəhər icra hakimiyyətinin

başçısı E.Məmmədovun israrlı xahişlərinə baxmayaraq, dinc əhalinin tam evakuasiyası təşkil olunmadı. Fevralın 25-də ermə-ni silahlı qüvvələri Xocalıya hücuma başladılar.

Artsax Milli Azadlıq Ordusunun birləşmələri zirehli texnikadan - zirehli maşınlar və tanklardan istifadə edərək hücumda iştirak etdi. Fevralın 25-i gecə saat 11-də Xocalı artilleriya atəşinə tutulmağa başladı. Əvvəlcə evlərdə və postlarda qurulmuş barrikadalar dağıdıldı. Fevralın 26-sı səhər saat 1-dən 4-ə kimi quru qo-şun birləşmələri şəhərə daxil oldular. Son müqavimət səhər saat 7-də qırıldı. Hücum zamanı Xocalıda qeyri-müəyyən sayda dinc sakin şəhərin bombardmanı zamanı qətlə yetirildi. Şəhərin erməni hərbi birləşmələri tərəfindən işğalından sonra təxminən 300 dinc sakin (86 məshəti türkü) şəhərdə qalmışdı. Hər iki tərəfdən alınmış məlumata əsasən, Xocalı şəhərində və Ağdama gedən yolda əsir götürülmüş 700-dən çox sakin 1992-ci il martın 23-nə kimi Azərbaycan tərəfinə qay-tarılmışdır. Onların əksəriyyəti qadın və uşaqlardır. Xocalıdan qaça bilən sakinlərin öz mülkiyyətlərinin hətta ən vacib hissələrini belə götürməyə imkanları olmamışdı. Erməni silahlı qüvvələri tərəfindən əsir götürülən sakinlər də əmlakla-rından heç nə götürə bilməmişdilər.

"Memorial" İnsan Hüquqlarına Nəzarət Mərkəzinin müşahidəçiləri işğal olunmuş şəhərdə böyük talanın şahidi olmuşlar. Xocalı sakinlərinin əmlakları Xankəndi (Stepanakert) və qonşu yaşayış məntəqələrinin sakinləri tərəfindən şəhərdən aparılmışdı. Evlərin əksəriyyətinin qapılarının üzərində onların yeni sakinlərinin adları yazılmışdı.

Qeyd etmək lazımdır ki, Xocalı faciəsində iştirak edən 366-cı alay Xankəndidə yerləşirdi. Bu alay dəfələrlə Azərbaycan kəndlərinin, Şuşa və Xocalı şəhərlərinin atəşə tutulmasında iştirak edib. Alaydan qaçan əsgərlərin ifadələri bu faktları təsdiq edir. 366-cı alayın Xankəndidən tələsik çıxması onun Xocalı hadisələrində iştirakını açıq aydın sübut edir. Bununla alay, həm də faciənin izlərini silmək is-təyirdi.

366-cı alayın zabitlərinin mənəvi tənəzzülü elə bir həddə çatmışdı ki, onlar qoşunlarının çıxarılmasını həyata keçirə bilmədilər. Gəncədə yerləşən desant qüv-vələri bu əməliyyatın həyata keçirilməsinə cəlb olunmuşdu. Desantlar gəlməmişdən əvvəl isə alayın 103 əsgəri, hansılar ki, əsasən zor işlədilməsində günah-larını etiraf edən ermənilər idi, əmrə tabe olmaqdan imtina etmiş və Qarabağda qalmışdı. Alayın ali komandanlığının razılığı və qoşunların çıxarılmasına məsulliyyət daşıyan digər ali komandirlərin hərəkətsizliyi nəticə-sində zirehli texnika da daxil olmaqla alayın silahlarının bir hissəsi növbəti cinayətləri törətmək, Azərbaycana qarşı seperatizmi davam etdirmək üçün ermənilərə verildi. Bu, 366-cı alayın Xocalı faciəsinin həyata keçirilməsində iştirakını sübut edən aydın bir faktdır!

Azərbaycan parlamenti Milli Məclis fevralın 26-nı "Xocalı soyqırımı günü" elan etdi. Hər il fevralın 26-sı axşam saat 5-də Azərbaycan Xocalı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad edir. Qaçqına çevrilmiş və Azərbaycanın 48 rayonunda müvəqqəti sığınacaq tapmış Xocalı sakinləri Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllini, Ermənistanın Azərbaycana qarşı təcavüzünə son qoyulmasını, respublikamızın ərazi bütövlüyünün bərpa olunmasını gözləyirlər. Onlar bütün dünyadakı insanları, dövlətləri və beynəlxalq təşkilatları haqq və ədaləti qorumağa, Xocalıda həyata keçirilən terrorizm və etnik təmizləmə aktlarını pisləməyə çağı-rırlar.

Xocalı faciəsinin təşkilatçıları və icraçıları layiq olduqları cəzanı almalıdır-lar. Heç bir cinayət cəzasız qalmamalıdır. XX əsr soyqırım və etnik təmizləmənin tarixini yazmış çoxlu sayda qanlı səhifələrin şahidi olmuşdur. Xocalı faciəsi bunla-rın ən dəhşətlilərindən biridir. Bu dəhşətli cinayətdə əli olan hər bir kəs hər şeydən əvvəl öz vicdanı qarşısında məsuliyyət daşıyır. Lakin, gün gələcək və onlar tarix məhkəməsi qarşısında cavab verəcəklər (5).

Beləliklə, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə xüsusi qəddarlıqla törədilmiş Xocalı soyqırımı erməni şovinist millətçilərinin azərbaycanlılara qarşı iki əsrdən artıq müddətdə həyata keçirdiyi etnik təmizləmə və soyqırım siyasətinin davamı, ən qanlı səhifələrindən biridir. Xocalı soyqırımı Ermənistanın Dağlıq Qarabağı işğal etmək məqsədi

ilə apardığı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş qətliamların miqyasca ən dəhşətlisidir. Ermənistan silahlı birləşmələri, Dağlıq Qarabağdakı erməni yaraqlıları, habelə uzun illər beynəlxalq ictimaiyyətə “sülhsevər” ordu kimi təqdim edilmiş keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı Xocalı şəhərini sakinləri ilə birlikdə gülləbaran edə-rək, insanlığa silinməz ləkə olan soyqırım aktını törətmişlər.

Cəmi bir neçə saat ərzində 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca milli mənşəyinə görə qəddarcasına, dözülməz işgəncələr verilməklə öldürülmüş, 487 nəfərə ağır xəsarət yetirilmiş, 1275 sakin-köməksiz qocalar, uşaqlar, qadınlar girov götürülərək zülm, təhqir və həqarətə məruz qoyulmuş-lar. Erməni qəsbkarları azərbaycanlıları qətlə yetirmək üçün hətta faşistlərin belə istifadə etmədikləri ən qəddar, tükürpədici üsullardan istifadə etmişlər. Xocalıda mülki əhalinin planlı şəkildə qətlə yetirilməsini sübut edən çoxsaylı faktlardan biri də məhz budur ki, həmin gün əhalinin zorakılıqdan qaçıb qurtarmaq istəyən his-sələri ərazidən çıxış yollarında əvvəlcədən xüsusi hazırlanmış pusqularda güllələn-mişlər. Xocalıdan çıxan əhalinin Naxçıvanik kəndi ərazisində pulemyot, avtomat və digər atıcı silahlardan gülləbaran edilməsi faktı bunu bir daha təsdiqləyir.

Genosid cinayəti üçün xüsusi niyyətin olması zəruri şərt sayılır və bu dəhşətli akt hökmən milli, etnik, irqi, dini qruplara qarşı yönəlməlidir. Erməni silahlı birləşmələrinin çirkin niyyəti Xocalı şəhərindəki azərbaycanlıları məhz milli-dini zəmində son nəfərədək qətlə yetirmək olmuşdur. Ermənilər beynəlxalq humanitar hüquqda yolverilməz sayılan soyqırım cinayətinə məqsədli şəkildə, bilərəkdən əl atmış, misli görünməmiş qətliam törətmişlər. Beynəlxalq hüquq normaları Xocalı faciəsinin soyqırım cinayəti kimi tövsifi üçün kifayət qədər ciddi əsaslar verir.

Ümumiyyətlə, ilk dəfə olaraq Nürnberq Hərbi Tribunalının Nizamnaməsində beynəlxalq cinayətlərin nədən ibarət olduğu göstərilmişdir. Orada soyqırım cinayəti insanlıq əleyhinə olan cinayətlər kateqoriyasına aid edilmişdir. BMT-nin “Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında” 1948-ci il 9 dekabr tarixli Konvensiyasında isə soyqırım cinayətinin mahiyyəti tam olaraq əksini tapmışdır. Beynəlxalq hüquqa görə soyqırım sülh və bəşəriyyət əleyhinə yönələn əməl olmaqla, müharibə cinayəti sayılır. Soyqırım hər hansı milli, irqi, etnik və dini əlamətlərinə görə fərqlənən xüsusi bir qrupun tamamilə və ya qismən məhv edilməsinə yönəlmiş aşağıdakı hərəkətlərə deyilir: birincisi, həmin qrupun üzvlərinin öldürülməsi; ikincisi, onların şikəst edilməsi, bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi; üçüncüsü, hər hansı qrupun qəsdən onun tam, yaxud qismən fiziki məhvini nəzərdə tutan həyat şəraitinin yaradılması; dördüncüsü, həmin qrupda doğumun qarşısını almağa yönəlmiş tədbirlərin həyata keçirilməsi; beşincisi, azyaşlı uşaqların bir insan qrupundan alınıb başqasına verilməsi. Bu hallardan hər hansı birinin mövcudluğu hadisənin soyqırım kimi qiymətləndirilməsi üçün kifayət edir. Bu meyarlar baxımından Xocalı faciəsi soyqırım cinayəti kimi qiymətləndirilməlidir.

### *Ədəbiyyat*

1. Azərbaycan Respublikası Ali Məhkəməsinin hesabatı.
2. www.google.az. BBS1 Morninq Nyus, saat 08. 12, Çərşənbə Axşamı, 3 Mart 1992
3. www.google.az. İndependent, 29 Fevral 1992
4. www.google.az. Kommersant, Moskva, 27 Fevral 2002
5. www.google.az. “Memorial” insan hüquqlarına nəzarət mərkəzinin hesabatından".
6. www.google.az. Nyu-York Tayms, 3 Mart 1992
7. www.google.az. Sandey Tayms, 1 Mart 1992
8. www.google.az. Tayms, 2 Mart 1992
9. www.google.az.Vaşinqton Post, 28 Fevral 1992

## ХОДЖАЛИНСКИЙ ГЕНОЦИД В ПРОИЗВЕДЕНИЯХ АРМЯНСКИХ АВТОРОВ

***Гасымова Арифа Акиф кызы***

***Резюме***

В статье рассматривается лицо Чоджалы глазами людей мира и проводится серьезный анализ. Бло отмечено, что трагедия стала очередным шагом в пресловутой политике ненавистных армянских сил. К сожалению, в то иремя Эннанистан не получил должного ответа. Однака наше государство уже вернуло город Ходжалы и отомстило. Это положило конец азному отношению к Ходжалинской трагедии.

## KHODJALIN GENOCIDE IN THE WORKS OF ARMENIANS AUTHOR'S

***Gasimova Arifa Akif***

***Summary***

The article focused on the Khojaly tragedy through the eyes of the peoples of the world and made a serious analysis, It was noted that the t tragedy was a relative step in the policy of the hated Armenian forcesUnf. Ortunately, Armenia did not receive a proper response at that time, However, our state has already taken back the city of Khojaly and retaliated. This put an end to the different attitude to the Khojaly tragedy

***Rəyçi: dos. H.Ə. Bəxtiyarlı, t.ü.f.d. G.M.Mustsfayeva***
***Ümumi tarix kafedrasının 27 fevral 2021 tarixli iclasın 06 saylı***
***Daxil olma tarixi 03 mart 2021-ci il***

**UOT:94.**

## TÜRK SİLAHLI QÜVVƏLƏRİNİN ƏFQANISTANDA SÜLHMƏRAMLI FƏALİYYƏTİNİN QISA XÜLASƏSİ

***Vəliyev Fərid Sübhan oğlu***
***Gəncə Dövlət Universitetinin doktorantı***
***farid valiyev caravanu@gmail.com***

**Xülasə:** *Bildiyimiz kimi 2001-cü ildən NATO Əfqanıstanda sülhməramlı missiya həyata keçirir. Missiyada bir çox ölkələr iştirak edirlər, Türkiyədə onlardan biridir. Türk Silahlı Qüvvələrinin (TSQ) əsas missiyası Əfqanıstan ərazisində əfqan əhalinin, o cümlədən müəyyən edilmiş ərazilərin, dövlət binalarının, aerodromların tam təhlükəsziliyini qorumaqdan ibarətdir. TSQ-i Əfqanıstandakı missiyasından əlavə olaraq, yerli əhali üçün humanitar yardımların çatdırılması, yerli polis qüvvələrinə təlimlərin verilməsi, dövlət binalarının, xəstəxanaların, aerodromların qorunmasında yaxından iştirak edirlər. Qeyd etmək lazımdir ki, yerli əhalı ilə TSQ-i arasında çox isti münasibətlər yaranmışdır, belə ki, yeli əhalinin problemlərinin anlayışla qəbul edib, onlara əllərindən gələn köməyi əsirgəməmək də, TSQ-nin demək olar ki, əsas devizlərindən biri olub.*

**Açar sözlər:** NATO, Türkiyə, Əfqanıstan, ISAF, Sülhməramlı missiya
**Key words:** Turkey, NATO, ISAF, Peacekeeping mission, Afghanistan
**Ключевые слова:** Турецкие Вооруженные Силы, Афганистан, Миротворческая миссия

**Araşdırma**

2001-cı il Sentyabrın 11 hadisələrindən sonra NATO ABŞ-nın dəstəyi ilə Əfqanıstan ərazısınə Əl-Qaidə ilə mübarizə üçün qoşun yeüritmək qərarına gəldi. Türkiyə 1 noyabr 2001-ci il tarixində hökumətin iclasında Əfqanıstana xüsusi təyinatlı dəstə göndərilməsi haqqında qərar qəbul edib. Bundan əvvəl Türkiyə parlamenti konstitusiyaya uyğun olaraq Türkiyə hökumətinə bu barədə qərar qəbul etmək səlahiyyətlərini verib. Hökumətin qərarında xüsusi